**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN**

**Q Ə R A R I**

№ 12/1

**Bakı şəhəri** **13 mart 2024-cü il**

**"Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə**

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 81.8-ci maddəsinə, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 31.2-ci maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.1.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. "Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq departamentinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

"Təsdiq edilmişdir"
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 12/1
13 mart 2024-cü il

# Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydası

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 81.8-ci maddəsinə və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 31.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və sığorta ehtiyatlarını təmin edən aktivlərin diversifikasiya səviyyəsi, etibarlılığı, investisiyaya yönəldilməsi, rentabelliyi, likvidliyi, tərkibi və digər keyfiyyət meyarları nəzərə alınmaqla, sığorta ehtiyatlarının tərkibini, formalaşdırılması və sığorta ehtiyatlarında təkrarsığortaçıların payının hesablanması qaydalarını, həmçinin katastrofik risklərin meyarlarını tənzimləyir.
1.2. İcbari sığorta növləri üzrə sığorta ehtiyatları "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla bu Qaydaya uyğun olaraq hesablanır.

## 2. Anlayışlar

2.1. Bu Qaydanın məqsədləri üçün istifadə olunmuş anlayışlar aşağıdakı mənaları ifadə edir:
2.1.1. aktuar metodları – sığorta ehtiyatlarının hesablanması zamanı aktuari tərəfindən tətbiq edilən iqtisadi-riyazi hesablama metodları;
2.1.2. hesabat tarixi – müvafiq rübün və ya təqvim ilinin başa çatdığı gün;
2.1.3. hesabat dövrü – hesabat tarixindən əvvəlki 12 (on iki) ay;
2.1.4. sığorta (təkrarsığorta) müqavilələri – sığorta müqavilələri və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığorta müqavilələri;
2.1.5. baza sığorta haqqı – sığorta müqaviləsi üzrə hesablanmış sığorta haqqından həmin müqavilənin bağlanması üzrə göstərilən vasitəçilik xidməti üçün hesablanmış komisyon muzd (hesablanmış sığorta haqqının 15%-dən çox olmamaqla) çıxıldıqdan sonra qalan məbləğ;
2.1.6. baza təkrarsığorta haqqı – təkrarsığorta müqaviləsi üzrə hesablanmış təkrarsığorta haqqından həmin müqavilə üzrə təkrarsığortalı və (və ya) vasitəçilik xidməti üçün hesablanmış komisyon muzd (qəbul edilən risklərlə bağlı təkrarsığorta müqavilələri üçün hesablanmış təkrarsığorta haqqının 15%-dən çox olmamaqla) çıxıldıqdan sonra qalan məbləğ;
2.1.7. qazanılmamış sığorta haqqı – sığorta haqqının sığorta təminatının qüvvədə olma müddətinin hesabat tarixindən sonrakı dövrünə aid olan hissəsi;
2.1.8. qazanılmamış təkrarsığorta haqqı – təkrarsığorta haqqının təkrarsığorta müqaviləsi üzrə təkrarsığorta təminatının qüvvədə olma müddətinin hesabat tarixindən sonrakı dövrünə aid olan hissəsi;
2.1.9. qazanılmamış sığorta haqları ehtiyatı – sığorta sinfinə aid olan bütün sığorta müqavilələri üzrə ayrı-ayrılıqda hesablanan qazanılmamış sığorta haqları əsasında formalaşdırılan ehtiyat;
2.1.10. qazanılmış məcmu sığorta (təkrarsığorta) haqqı – dövr ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu baza sığorta (təkrarsığorta) haqlarının və dövrün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsinin cəmindən həmin dövrün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini çıxdıqdan sonra qalan məbləğ;
2.1.11. minimum depozit təkrarsığorta haqqı – qeyri-mütənasib obliqator təkrarsığorta müqavilələrində təkrarsığortalının gözlənilən sığorta portfelinə uyğun olaraq müəyyən edilən, müqavilə ilinin əvvəlində ödənilən ilkin təkrarsığorta haqqı;
2.1.12. tənzimlənməmiş tələb – sığorta (təkrarsığorta) müqaviləsinə müvafiq olaraq sığorta ödənişinin həyata keçirilməsi üçün sığortaçıya bildirilmiş elə sığorta (təkrarsığorta) tələbidir ki, onunla əlaqədar sığorta ödənişi verilməmişdir və ya tam məbləğdə verilməmişdir;
2.1.13. gətirilmiş gözlənilən dəyər – faiz dərəcəsi və hesabat tarixi ilə sığorta haqlarının və ya sığorta ödənişlərinin verilməsi tarixləri arasındakı müddət nəzərə alınmaqla hesablanan (diskontlaşdırılan) sığorta haqlarının və ya sığorta ödənişlərinin, yaxud da xərclərin gözlənilən (ehtimal olunan) dəyəri;
2.1.14. bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı – baş verməsi haqqında qanunvericiliklə və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat tarixinə qədər sığortaçıya bildirilmiş, lakin sığorta ödənişləri verilməmiş, yaxud tam verilməmiş sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi məqsədilə formalaşdırılan ehtiyat;
2.1.15. uzunmüddətli öhdəliklər ehtiyatı (riyazi ehtiyatlar) – hesabat tarixinə qədər baş verməmiş, lakin sığorta (təkrarsığorta) müqaviləsinin qüvvədə olma müddətində gələcəkdə baş verməsi mümkün ola bilən sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi məqsədilə formalaşdırılan ehtiyat;
2.1.16. baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı – baş verməsi haqqında qanunvericiliklə və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat tarixinə qədər sığortaçıya bildirilməmiş sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi məqsədilə formalaşdırılan ehtiyat;
2.1.17. sabitləşdirici ehtiyat – hər hansı sığorta sinfi üzrə təkrarsığortaçının payı çıxılmaqla hesablanan zərərlilik dərəcəsi 100%-dən artıq olduğu halda formalaşdırılan ehtiyat;
2.1.18. şərti öhdəliklər ehtiyatı – "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq kompensasiya ödənişlərinin verilməsi üçün kompensasiya ödənişləri ehtiyatı kifayət etmədikdə, sığortaçı tərəfindən əlavə haqların ödənilməsini təmin etmək üçün formalaşdırılan ehtiyat;
2.1.19. katastrofik risklər – bu Qaydanın məqsədləri üçün zəlzələ riski;
2.1.20. katastrofik risklər üzrə ehtiyat – katastrofik risklərin baş verməsi ilə nəticələnən sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi məqsədilə formalaşdırılan ehtiyat;
2.1.21. həyatın qeyri-yığım sığortası – həyatın yığım sığortasına aid olmayan həyat sığortası sinifləri;
2.1.22. xalis sığorta ehtiyatları – sığorta ehtiyatlarından bu ehtiyatlarda təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan məbləğ.
2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının sığorta qanunvericiliyi ilə müəyyən edilmiş mənaları ifadə edir.
2.3. Bu Qaydada istifadə olunan "sığortaçı" anlayışı sığortaçılarla yanaşı, Qanunun 1.2-ci maddəsinə uyğun olaraq təkrarsığortaçıları da əhatə edir.

## 3. Sığorta ehtiyatlarının tərkibi

3.1. Sığortaçı tərəfindən Qanunun 81.5–81.7-ci maddələrinə uyğun olaraq, sığorta ehtiyatları aşağıdakı tərkibdə formalaşdırılır:
3.1.1. qazanılmamış sığorta haqları ehtiyatı (bundan sonra – QSHE);
3.1.2. uzunmüddətli öhdəliklər ehtiyatı (riyazi ehtiyatlar) (bundan sonra – RE);
3.1.3. zərərlər ehtiyatı:
3.1.3.1. baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı (bundan sonra – BVBZE);
3.1.3.2. bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı (bundan sonra – BTZE);
3.1.4. sabitləşdirici ehtiyat;
3.1.5. şərti öhdəliklər ehtiyatı;
3.1.6. katastrofik risklər üzrə ehtiyat (bundan sonra – KRE);
3.1.7. Qanunun 81.7-ci maddəsinə əsasən formalaşdırılması tələb olunan əlavə ehtiyatlar.
3.2. Sığorta ehtiyatlarının bu Qaydaya əsasən hesablanmış məbləği onun minimum məbləğidir. Sığortaçı istifadə olunmuş aktuar metodlarını əsaslandırmaqla bu Qaydaya əsasən hesablanmış minimum məbləğdən artıq məbləğdə də sığorta ehtiyatları formalaşdıra bilər.
3.3. Sığorta ehtiyatlarının bu Qaydaya əsasən hesablanmış minimum məbləğindən artıq məbləği və əlavə ehtiyatlar üzrə təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

## 4. Sığorta ehtiyatlarının formalaşdırılmasına dair ümumi tələblər

4.1. Qüvvədə olan sığorta (təkrarsığorta) müqavilələri üzrə qəbul edilmiş öhdəliklərin icrasını təmin etmək üçün sığortaçı bu Qaydaya əsasən hesablanmış məbləğdən az olmayan məbləğdə formalaşdırılmış sığorta ehtiyatlarına malik olmalıdır.
4.2. Sığorta ehtiyatları sığortaçı tərəfindən aparılmasına icazə verilmiş hər bir sığorta sinfi üzrə ayrılıqda formalaşdırılır.
4.3. Sığorta ehtiyatları sığortaçı tərəfindən bağlanmış bütün sığorta (təkrarsığorta) müqavilələri üzrə qəbul edilən risklərin təkrarsığorta etdirilməsindən asılı olmayaraq hesablanır.
4.4. Sığorta ehtiyatlarının hesablanması zamanı bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş sığorta ehtiyatlarının hər biri üzrə bu Qaydanın 7-ci hissəsinə müvafiq olaraq təkrarsığortaçıların payı müəyyən edilir.
4.5. Qanunvericiliklə və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə sığorta təminatının müddəti dəqiq təyin olunmadığı halda, sığorta ehtiyatları sığorta (təkrarsığorta) müqaviləsinin qüvvədə olma müddətinə əsasən hesablanır.
4.6. Müəyyən sığorta sinfinə münasibətdə bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş sığorta ehtiyatlarından hər hansı birində təkrarsığortaçıların payı sığorta ehtiyatlarından böyük olarsa, həmin sığorta ehtiyatlarında təkrarsığortaçıların payı sığorta ehtiyatlarına bərabər götürülür.
4.7. Sığorta (təkrarsığorta) müqaviləsinin şərtləri təkrarsığortaya ötürülmüş risklərlə bağlı təkrarsığorta müqaviləsinin şərtlərinə uyğun olmadıqda, uyğunluq təşkil etməyən risklərə münasibətdə sığorta ehtiyatlarında təkrarsığortaçıların payı sıfıra bərabər olur.
4.8. Sığortaçı sığorta ehtiyatlarının hesablanması üçün zəruri məlumatları əks etdirən kağız və ya elektron daşıyıcılarda olan sənədləri (sığorta (təkrarsığorta) müqavilələri, sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi və ya sığorta hadisələrinin baş verməsi haqqında daxil olmuş ərizələr, bildirilmiş zərərin ehtimal olunan ilkin məbləğini əks etdirən sənədlər, hesablanmış komisyon muzdlar, sığorta (təkrarsığorta) haqlarının ödənilməsi, hesablanmış sığorta ödənişləri, sığorta ödənişlərinin verilməsi və qaytarılan sığorta (təkrarsığorta) haqları barədə mühasibat sənədləri) sığorta (təkrarsığorta) müqavilələri üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra ən azı 5 (beş) il müddətində saxlamalıdır.
4.9. Sığortaçı həyat və qeyri-həyat sığortası sahələri üzrə sığorta ehtiyatlarının hesablanması üçün zəruri olan məlumatların ayrılıqda aşağıdakı jurnallarda qeydiyyatını aparmalıdır:
4.9.1. "Sığorta (təkrarsığorta) müqavilələrinin uçotu jurnalı";
4.9.2. "Zərərlərin uçotu jurnalı".
4.10. Sığorta ehtiyatlarının hesablanması ilə əlaqədar "Sığorta (təkrarsığorta) müqavilələrinin uçotu jurnalı" və "Zərərlərin uçotu jurnalı"nın formaları müvafiq olaraq bu Qaydaya 1 və 2 nömrəli əlavələrdə göstərilmişdir. Sığortaçı həmin jurnallarda (axırıncı sütundan sonra) sığorta (təkrarsığorta) müqavilələri və zərərlərlə bağlı digər məlumatları da göstərə bilər.

## 5. Qeyri-həyat sığortası sahəsi üzrə sığorta ehtiyatları

**5.1. Qazanılmamış sığorta haqları ehtiyatı**
5.1.1. Qazanılmamış sığorta haqları ehtiyatı hesabat tarixinə qüvvədə olan sığorta müqavilələri üzrə formalaşdırılır və iki hissədən ibarətdir:
5.1.1.1. qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi (bundan sonra – QSHEB);
5.1.1.2. qazanılmamış sığorta haqları ehtiyatının əlavə hissəsi (bundan sonra – QSHEƏ).
5.1.2. Qazanılmamış sığorta haqqı hər bir sığorta müqaviləsi üzrə aşağıdakı düsturla hesablanır:

burada:
QSH – sığorta müqaviləsi üzrə qazanılmamış sığorta haqqıdır;
BSH – sığorta müqaviləsi üzrə baza sığorta haqqıdır;
$T_1$ – sığorta təminatının müddətinin günlərlə sayıdır;
$T_2$ – sığorta təminatının başlandığı andan hesabat tarixinə qədər onun qüvvədə olduğu günlərin sayıdır.
5.1.3. Müvafiq sığorta sinfinə aid olan bütün sığorta müqavilələri üzrə ayrı-ayrılıqda hesablanan qazanılmamış sığorta haqlarının cəmi həmin sinif üzrə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini təşkil edir.
5.1.4. Qazanılmamış sığorta haqları ehtiyatının əlavə hissəsi bu Qaydanın 7.2.3-cü yarımbəndinə müvafiq olaraq hesablanır.

**5.2. Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı**

5.2.1. BTZE sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya bildirilmiş, lakin hesabat tarixinə qədər tənzimlənməmiş hər bir tələb üzrə formalaşdırılır. Bildirilmiş tələb sığorta hadisəsinin baş verməsi barədə qanunvericiliklə və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada sığortaçıya bildirildiyi andan zərər məbləği göstərilməklə "Zərərlərin uçotu jurnalı"nda qeyd olunur.
5.2.2. BTZE aşağıdakı düsturla hesablanır:

burada:
SÖ – sığorta (təkrarsığorta) müqavilələri üzrə bildirilmiş tələblərlə bağlı hesabat tarixinə verilməli olan sığorta ödənişləridir;
$Q_t$SH – sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi (şərtlərinin dəyişdirilməsi) ilə əlaqədar hesabat tarixinə sığortalılara (təkrarsığortalılara) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarıdır;
ZTX – sığorta (təkrarsığorta) müqavilələri üzrə bildirilmiş tələblərlə bağlı zərərlərin tənzimlənməsi, o cümlədən sığorta ödənişlərinin məbləğlərinin müəyyən edilməsi, həmçinin sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi (şərtlərinin dəyişdirilməsi) ilə əlaqədar hesabat tarixinə sığortalılara (təkrarsığortalılara) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının hesablanması zamanı sığortaçının çəkməli olduğu zərərlərin tənzimlənməsi xərcləridir.
ZTX sığorta müqavilələri üzrə bildirilmiş tələblərlə bağlı verilməli olan sığorta ödənişlərinin və sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi (şərtlərinin dəyişdirilməsi) ilə əlaqədar hesabat tarixinə sığortalılara (təkrarsığortalılara) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının 3%-i məbləğində qəbul edilir.
5.2.3. Verilməli olan sığorta ödənişinin məbləği müəyyən edilmədiyi halda, BTZE-nin hesablanması üçün sığorta ödənişinin sığorta hadisəsi barədə sığortaçı tərəfindən ilkin olaraq alınmış məlumatlar əsasında qiymətləndirilmiş mümkün ola bilən maksimum məbləği (sığorta məbləğindən çox olmamaqla) istifadə edilir.
5.2.4. BTZE-nin məbləği tənzimlənməmiş hər bir tələbin formalaşdığı sığorta (təkrarsığorta) müqaviləsinə münasibətdə sığorta haqlarının ödənilməsi üzrə sığortalının (təkrarsığortalının) hesabat tarixinə sığortaçıya olan borcları qədər əvəzləşdirilə bilər.
5.2.5. Sığortaçı BTZE-ni hansının birinci baş verməsindən asılı olaraq, sığorta ödənişinin verildiyi və ya sığorta ödənişinin verilməsindən imtina edilməsi barədə sığortaçının qərar qəbul etdiyi, yaxud sığorta ödənişindən sığortalının yazılı şəkildə imtina etdiyi anadək formalaşdırır.

**5.3. Baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı**
5.3.1. BVBZE aşağıdakı məbləğlərin ən böyük olanına bərabərdir:
5.3.1.1. verilmiş sığorta ödənişlərinə əsasən hesabat tarixinə üçbucaq metodu ilə hesablanmış BVBZE;
5.3.1.2. hesabat tarixinə hesablanmış BTZE-nin 25%-i;
5.3.1.3. hesabat dövrü ərzində qazanılmış məcmu sığorta haqlarının 2,5%-i.
5.3.2. Üçbucaq metodundan istifadə edərkən hesablamada istifadə olunan sığorta ödənişlərinin aid olduğu dövr kimi Qanunun 14.3.1.1–14.3.2.7-ci maddələrində nəzərdə tutulmuş sığorta sinifləri üçün hesabat tarixindən əvvəlki 12 (on iki) rüb, Qanunun 14.3.3.1–14.3.5.2-ci maddələrində nəzərdə tutulmuş sığorta sinifləri üçün isə 20 (iyirmi) rüb qəbul edilir. Rüblərin sayı "N" ilə işarə olunur. Hesabat tarixi N-ci rübün sonu ilə üst-üstə düşür.
5.3.3. BVBZE-nin üçbucaq metodu ilə hesablanmasında istifadə olunan ilkin məlumatlar aşağıdakılardır:
5.3.3.1. müvafiq sığorta sinfinin bütün sığorta (təkrarsığorta) müqavilələri üzrə i-ci rübdə baş vermiş sığorta hadisələri ilə əlaqədar ilk j rüb ərzində verilmiş sığorta ödənişlərinin (subroqasiya qaydasında alınan məbləğlər çıxılmaqla) cəmi (bu göstərici "x(i, j)" ilə işarə edilir);
5.3.3.2. müvafiq sığorta sinfinin bütün sığorta (təkrarsığorta) müqavilələri üzrə i-ci rübdə qazanılmış məcmu sığorta haqları (bu göstərici "QMSH(i)" ilə işarə edilir);
5.3.3.3. müvafiq sığorta sinfinin bütün sığorta (təkrarsığorta) müqavilələri üzrə i-ci rübdə baş vermiş sığorta hadisələri üzrə bildirilmiş, lakin hesabat tarixinə qədər tənzimlənməmiş zərərlərin məbləği (bu göstərici "BTZ(i)" ilə işarə edilir).
5.3.4. BVBZE-nin üçbucaq metodu ilə hesablanması aşağıdakı mərhələlərdən ibarətdir:
5.3.4.1. bütün rüblər (i=1,2,…,N) ərzində baş vermiş sığorta hadisələri ilə əlaqədar j-ci rübün sonunadək ödənilmiş zərərlərin ümumi məbləğinin hesablanması. Bu göstərici "y(j)" ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.2. zərərlərin inkişafı əmsallarının hesablanması. Bu əmsallar "C(j,j+1)" ilə işarə edilir və j-ci rübdən (j+1)-ci rübə keçdikdə ümumi sığorta ödənişinin dəyişməsini göstərir. Qeyd olunan əmsallar aşağıdakı düsturla hesablanır:

Əgər müəyyən sığorta sinfi üzrə zərərlərin inkişafı əmsalları hesablanarkən sıfıra bölmə halı yaranarsa, sığortaçı hesablamaların davam etdirilməsi məqsədilə həmin sığorta sinfinə dair hər ilin mart ayının 31-dək Azərbaycan Respublikasının Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) elektron informasiya sistemində üçbucaq metodu ilə BVBZE-nin və bu ehtiyatda təkrarsığortaçıların payının hesablanması üzrə ayrı-ayrılıqda yerləşdirdiyi zərərlərin inkişafı əmsallarından və ödənilmiş zərərlər əmsalının orta qiymətindən istifadə edir.
5.3.4.3. zərərlərin inkişafı amillərinin hesablanması. Bu göstərici "H(j)" ilə işarə edilir və j-ci rübdən N-ci rübə (hesabat və ya zərərlərin ödənilməsi rübünə) keçdikdə ümumi sığorta ödənişinin məbləğinin məcmu dəyişmə tempini göstərir. Qeyd olunan göstərici aşağıdakı düsturla hesablanır:

5.3.4.4. gecikmə amillərinin hesablanması. Bu göstərici "L(j)" ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.5. ödənilmiş zərərlər əmsalının (i-ci rübdə baş vermiş sığorta hadisələri üzrə hesablama zərərliliyinin) hesablanması. Bu göstərici “U(i)” ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.6. ödənilmiş zərərlər əmsalının orta qiymətinin hesablanması. Bu göstərici “U” ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

burada:
m – bu Qaydaya 3 nömrəli əlavədəki 8-8 və 8-12 №-li Formalarda, 4 nömrəli əlavədəki 9-11 və 9-15 №-li Formalarda əks olunmuş qazanılmış məcmu sığorta (təkrarsığorta) haqları sütununda sıfır olmayan sətirlərin sayıdır;
$k_i$ (i = 1, 2, ..., m) – bu Qaydaya 3 nömrəli əlavədəki 8-8 və 8-12 №-li Formalarda, 4 nömrəli əlavədəki 9-11 və 9-15 №-li Formalarda əks olunmuş qazanılmış məcmu sığorta (təkrarsığorta) haqları sütununda sıfır olmayan sətirlərin sıra nömrələridir;
$U(k_i)$– $k_i$ nömrəli sətir üzrə ödənilmiş zərər əmsalıdır.

5.3.4.7. i-ci rübdə baş vermiş sığorta hadisələri üzrə bütün (ödənilmiş və ödənilməmiş) zərərlərin N-ci rübün sonuna gözlənilən (proqnozlaşdırılan) məbləğinin hesablanması. Bu göstərici “V(i)” ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.8. i-ci rübdə baş vermiş sığorta hadisələri üzrə ödənilməmiş zərərlərin N-ci rübün sonuna gözlənilən (proqnozlaşdırılan) məbləğinin hesablanması. Bu göstərici “R(i)” ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.9. i-ci rübdə baş vermiş, lakin bildirilməmiş zərərlərin N-ci rübün sonuna gözlənilən (proqnozlaşdırılan) məbləğinin hesablanması. Bu göstərici “BVBZ(i)” ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.10. sığorta hadisələrinin baş verdiyi bütün rüblər üzrə müvafiq sığorta sinfinin bütün sığorta (təkrarsığorta) müqavilələri üçün baş vermiş, lakin bildirilməmiş zərərlərin N-ci rübün sonuna gözlənilən (proqnozlaşdırılan) məbləğinin hesablanması. Bu göstərici “BVBZ” ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.11. zərərlərin tənzimlənməsi xərcləri də nəzərə alınmaqla, sığorta hadisələrinin baş verdiyi bütün rüblər üzrə müvafiq sığorta sinfinin bütün sığorta (təkrarsığorta) müqavilələri üçün baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatının N-ci rübün sonuna gözlənilən (proqnozlaşdırılan) məbləğinin hesablanması. Bu göstərici “BVBZE” ilə işarə edilir və aşağıdakı düsturla hesablanır:

5.3.4.12. bütün sığorta portfeli üzrə BVBZE-nin hesablanması. Bu məbləğ hər bir sığorta sinfi üzrə hesablanan baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatını toplamaqla müəyyən edilir.

**5.4. Sabitləşdirici ehtiyat**

5.4.1. Sığorta sinfi üzrə sabitləşdirici ehtiyatın məbləği hesabat tarixinə həmin sinif üzrə təkrarsığortaçıların payı çıxılmaqla hesablanmış zərərlilik dərəcəsinin 100%-dən artıq olan hissəsi ilə bu sinif üzrə qazanılmamış sığorta haqları ehtiyatının hasilinə bərabərdir.
5.4.2. Sabitləşdirici ehtiyatda təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

**5.5. Şərti öhdəliklər ehtiyatı**

5.5.1. Şərti öhdəliklər ehtiyatı “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan icbari sığorta növləri üzrə formalaşdırılır.
5.5.2. Şərti öhdəliklər ehtiyatı İcbari Sığorta Bürosunun iştirakçısı olan sığortaçılar tərəfindən aparılmasına icazə verilən hər bir icbari sığorta sinfi üzrə hesabat dövrü ərzində hesablanmış sığorta (təkrarsığorta) haqlarının (xitam verilmiş sığorta (təkrarsığorta) müqavilələri üzrə qaytarılmış sığorta haqları və Azərbaycan Respublikasının rezidenti olan sığortaçılara ötürülmüş müqavilələr üzrə təkrarsığorta haqları çıxılmaqla) 3%-i məbləğində formalaşdırılır.
5.5.3. Şərti öhdəliklər ehtiyatında təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

**5.6. Katastrofik risklər üzrə ehtiyat**
5.6.1. KRE-nin hesablanması katastrofik risk təminatı verilmiş hesabat tarixinə qüvvədə olan hər bir sığorta (təkrarsığorta) müqaviləsi üzrə aparılır.
5.6.2. KRE rüblük əsasda artan yekunla aşağıdakı düsturla hesablanır:

burada:
KRE (Q–1) – hesabat tarixindən əvvəlki rübün sonuna KRE;
$QnSH_{katastrofik}$ – rüb ərzində qazanılmış məcmu sığorta haqlarının katastrofik risk təminatına düşən hissəsi;
$QnTSH_{katastrofik}$ – təkrarsığortaya ötürülmüş risklər üzrə rüb ərzində qazanılmış məcmu təkrarsığorta haqlarının katastrofik risk təminatına düşən hissəsi.
5.6.3. Katastrofik risk təminatı verilən sığorta (təkrarsığorta) müqaviləsində sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi müqavilə ilə müəyyənləşdirilmədiyi halda, bu məbləğ daşınmaz əmlakın sığortası ilə bağlı sığorta növləri üzrə sığorta haqqının azı 20%-nə, digər sığorta növləri üzrə isə sığorta haqqının azı 2%-nə bərabər hesab edilir.
5.6.4. KRE-nin yuxarı həddi hesabat tarixindən əvvəlki son 5 (beş) təqvim ilinin sonuna katastrofik risk üzrə hesablanmış xalis baza sığorta haqlarının (baza sığorta haqqından təkrarsığorta haqqı çıxıldıqdan sonra qalan hissə) ən yüksək məbləğinin 150%-ni aşmamalıdır.
5.6.5. Katastrofik risk təminatı verilmiş hadisənin baş verməsi zamanı bu ehtiyat sığorta (təkrarsığorta) müqaviləsi ilə təminat verilmiş katastrofik risklərə görə verilən sığorta ödənişlərinin (sığorta ödənişləri veriləne qədər isə xalis BTZE-nin) məbləği qədər (sığorta ödənişlərində təkrarsığortaçının payı və sığorta müqaviləsi üzrə azadolma məbləğləri çıxılmaqla) azaldıla bilər.

## 6. Həyat sığortası sahəsi üzrə sığorta ehtiyatları

6.1. Həyat sığortası üzrə sığorta ehtiyatlarının hesablanması Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş aşağıdakı sığorta siniflərinə aid olan hər bir sığorta müqaviləsi üzrə ayrılıqda aparılır:
6.1.1. Qanunun 14.2.1-ci, 14.2.4-cü və 14.2.5-ci maddələrində nəzərdə tutulmuş sığorta sinifləri (həyatın qeyri-yığım sığortası);
6.1.2. həyatın yaşam sığortası;
6.1.3. annuitet sığortası:
6.1.3.1. sığorta ödənişlərinin verilməsinin başlanğıc tarixi hesabat tarixindən sonra gələn annuitet sığortası;
6.1.3.2. sığorta ödənişlərinin verilməsinin başlanğıc tarixi hesabat tarixindən əvvəl gələn annuitet sığortası.

**6.2. Riyazi ehtiyatlar**
6.2.1. Riyazi ehtiyatlar hesabat tarixinə qüvvədə olan sığorta (təkrarsığorta) müqavilələri üzrə formalaşdırılır və iki hissədən ibarətdir:
6.2.1.1. riyazi ehtiyatların baza hissəsi (bundan sonra – REB);
6.2.1.2. riyazi ehtiyatların əlavə hissəsi (bundan sonra – REƏ).
6.2.2. REB-in hesablanması zamanı sığortaçı həmin ehtiyatların təmin edilməsi üçün qəbul edilən aktivlərin investisiya portfeli üzrə gəlirliliyinin proqnozlaşdırılan səviyyəsinə bərabər olan və aşağıdakı hədləri aşmayan illik faiz dərəcəsindən istifadə etməlidir:
6.2.2.1. sığorta məbləği xarici valyutada ifadə olunursa, 5%;
6.2.2.2. sığorta məbləği milli valyutada ifadə olunursa, 8%.

**6.2.3. Annuitet sığortası istisna olmaqla, digər həyat sığortası sinifləri üzrə riyazi ehtiyatlar**
6.2.3.1. Annuitet sığortası istisna olmaqla, digər həyat sığortası siniflərinə aid olan sığorta (təkrarsığorta) müqaviləsi üzrə riyazi ehtiyatların baza hissəsi aşağıdakı düsturla hesablanır:

burada:
$SÖ_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqaviləsinin şərtlərində nəzərdə tutulan sığorta ödənişlərinin gətirilmiş gözlənilən dəyəridir;
$ZTX_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqaviləsi üzrə sığorta hadisələrinin tənzimlənməsi, o cümlədən sığorta ödənişlərinin məbləğlərinin müəyyən edilməsi ilə bağlı sığortaçının zərərlərin tənzimlənməsi xərclərinin gətirilmiş gözlənilən dəyəridir;
$İAX_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqaviləsi üzrə sığortaçının işlərin aparılması xərclərinin gətirilmiş gözlənilən dəyəridir;
$SH_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqaviləsi üzrə sığortaçının hesabat tarixindən sonra almalı olduğu sığorta (təkrarsığorta) haqlarının gətirilmiş gözlənilən dəyəridir.

6.2.3.2. Annuitet sığortası istisna olmaqla, digər həyat sığortası siniflərinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə ayrı-ayrılıqda hesablanmış riyazi ehtiyatların baza hissələrinin cəmi həmin sinif üzrə riyazi ehtiyatların baza hissəsini təşkil edir.
6.2.3.3. Annuitet sığortası istisna olmaqla, digər həyat sığortası sinifləri üzrə riyazi ehtiyatların əlavə hissəsi bu Qaydanın 7.4.1.1.2-ci yarımbəndinə müvafiq olaraq hesablanır.

**6.2.4. Annuitet sığortası üzrə riyazi ehtiyatlar**
6.2.4.1. Annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqaviləsi üzrə müntəzəm sığorta ödənişlərinin məbləği artmadıqda riyazi ehtiyatların baza hissəsi aşağıdakı düsturla hesablanır:

burada:
$SÖ_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqaviləsinin şərtlərində nəzərdə tutulan sığorta ödənişlərinin gətirilmiş gözlənilən dəyəridir;
$İAX_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqaviləsi üzrə sığortaçının işlərin aparılması xərclərinin gətirilmiş gözlənilən dəyəridir;
$SH_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqaviləsi üzrə sığortaçının hesabat tarixindən sonra almalı olduğu sığorta (təkrarsığorta) haqlarının gətirilmiş gözlənilən dəyəridir. Sığorta (təkrarsığorta) müqaviləsi üzrə sığorta ödənişlərinin verilməsinin başlanğıc tarixi hesabat tarixindən əvvəl gəldikdə $SH_{g.g.d}$ sıfıra bərabər olur.
6.2.4.2. Sığorta (təkrarsığorta) müqaviləsi üzrə müntəzəm sığorta ödənişlərinin məbləği artdıqda riyazi ehtiyatların baza hissəsi aşağıdakı kimi müəyyən edilir:
6.2.4.2.1. sığorta ödənişləri dövründə bu Qaydanın 6.2.4.1-ci yarımbəndində nəzərdə tutulmuş qaydada. Bu zaman sığorta ödənişlərinin gətirilmiş gözlənilən dəyərinin hesablanması sığorta ödənişlərinin məbləğindəki artım nəzərə alınmaqla aparılır;
6.2.4.2.2. sığorta haqlarının yığımı dövründə aşağıdakı məbləğlərin böyük olanı əsasında:
6.2.4.2.2.1. sığorta ödənişlərinin gətirilmiş gözlənilən dəyəri ilə bu Qaydanın 6.2.4.1-ci yarımbəndinə müvafiq olaraq hesablanmış riyazi ehtiyatların baza hissələrinin cəmi. Bu zaman sığorta ödənişlərinin gətirilmiş gözlənilən dəyərinin hesablanması sığorta ödənişlərinin məbləğindəki artım nəzərə alınmamaqla aparılır və sığorta (təkrarsığorta) müqaviləsi üzrə hesablanan və bölüşdürülən əlavə gəlirlərin məbləğinə bərabər olur;
6.2.4.2.2.2. bu Qaydanın 6.2.4.1-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilmiş məbləğ. Bu zaman sığorta ödənişlərinin gətirilmiş gözlənilən dəyərinin hesablanması sığorta ödənişləri məbləğinin sığortaçının əlavə gəlirləri hesabına artırılması nəzərə alınmaqla aparılır.
6.2.4.3. Annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə ayrı-ayrılıqda hesablanmış riyazi ehtiyatların baza hissələrinin cəmi həmin sinif üzrə riyazi ehtiyatların baza hissəsini təşkil edir.
6.2.4.4. Annuitet sığortası üzrə riyazi ehtiyatların əlavə hissəsi bu Qaydanın 7.4.1.1.2-ci yarımbəndinə müvafiq olaraq hesablanır.

**6.3. Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı**
6.3.1. Annuitet sığortası istisna olmaqla, digər həyat sığortası sinifləri üzrə BTZE sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya bildirilmiş, lakin hesabat tarixinə qədər tənzimlənməmiş hər bir tələb üzrə hesablanır. Bildirilmiş tələb sığorta hadisəsinin baş verməsi barədə qanunvericiliklə və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada sığortaçıya bildirildiyi andan zərər məbləği göstərilməklə "Zərərlərin uçotu jurnalı"nda qeyd olunur.
6.3.2. BTZE aşağıdakı düsturla hesablanır:

burada:
$SÖ_{g.g.d}$ – tənzimlənməmiş tələblər üzrə sığorta ödənişlərinin gətirilmiş gözlənilən dəyəridir;
$Q_tSH_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi (şərtlərinin dəyişdirilməsi) ilə əlaqədar hesabat tarixinə sığortalılara (təkrarsığortalılara) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının gətirilmiş gözlənilən dəyəridir;
$X_{g.g.d}$ – sığorta (təkrarsığorta) müqavilələri üzrə bildirilmiş tələblərlə bağlı sığorta hadisələrinin tənzimlənməsi, sığorta ödənişlərinin məbləğlərinin müəyyən edilməsi, həmçinin sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi (şərtlərinin dəyişdirilməsi) ilə əlaqədar hesabat tarixinə sığortalılara (təkrarsığortalılara) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının hesablanması üzrə sığortaçının xərclərinin gətirilmiş gözlənilən dəyəridir.
Sığortaçının xərclərinin gətirilmiş gözlənilən dəyəri bildirilmiş tələblərlə bağlı verilməli olan sığorta ödənişlərinin və sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi ilə əlaqədar hesabat tarixinə sığortalılara (təkrarsığortalılara) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının 3%-i məbləğində qəbul edilir.
6.3.3. BTZE-nin məbləği tənzimlənməmiş hər bir tələbin formalaşdığı sığorta (təkrarsığorta) müqaviləsinə münasibətdə sığorta (təkrarsığorta) haqlarının ödənilməsi üzrə sığortalının (təkrarsığortalının) hesabat tarixinə sığortaçıya olan borcları qədər əvəzləşdirilə bilər.
6.3.4. Sığortaçı BTZE-ni, hansının birinci baş verməsindən asılı olaraq, sığorta ödənişinin verildiyi və ya sığorta ödənişinin verilməsindən imtina barədə sığortaçının qərar qəbul etdiyi, yaxud sığorta ödənişindən sığortalının yazılı şəkildə imtina etdiyi anadək formalaşdırır.
6.3.5. Annuitet sığortası üzrə BTZE sıfıra bərabərdir.

**6.4. Baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı**
6.4.1. Həyatın qeyri-yığım sığortası sinfi üzrə BVBZE bu Qaydanın 5.3.1-ci yarımbəndinə müvafiq olaraq hesablanır.
6.4.2. Həyatın yaşam sığortası və annuitet sığortası üzrə BVBZE sıfıra bərabərdir.

**6.5. Katastrofik risklər üzrə ehtiyat**

6.5.1. KRE-nin hesablanması katastrofik risk təminatı verilmiş hesabat tarixinə qüvvədə olan hər bir sığorta (təkrarsığorta) müqaviləsi üzrə aparılır.
6.5.2. KRE rüblük əsasda artan yekunla aşağıdakı düsturla hesablanır ( bu Qaydanın 6.5.4-cü yarımbəndi nəzərə alınmaqla):

burada:
KRE (Q–1) – hesabat tarixindən əvvəlki rübün sonuna KRE;
$SHÖ_{katastrofik}$ – rüb ərzində məcmu ödənilmiş sığorta haqlarının katastrofik risk təminatına düşən hissəsi (hesablanmış sığorta haqqının 15%-dən çox olmamaqla hesablanan komisyon muzdun bir rübə mütənasib olan hissəsi çıxılmaqla) ;
$TSHH_{katastrofik}$ – təkrarsığortaya ötürülmüş risklər üzrə hesablanmış məcmu baza təkrarsığorta haqlarının katastrofik risk təminatına düşən hissəsinin bir rübə mütənasib olan hissəsi.
6.5.3. Katastrofik risk təminatı verilən sığorta (təkrarsığorta) müqaviləsində sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi müqavilə ilə müəyyənləşdirilmədiyi halda, bu məbləğ sığorta haqqının ölüm təminatına düşən hissəsinin azı 11%-nə (bu Qaydanın 6.5.4-cü yarımbəndi nəzərə alınmaqla) bərabər hesab edilir.
6.5.4. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta növü üzrə KRE bu Qaydanın 5.6.2-ci yarımbəndinə əsasən hesablanır və bu sığorta növü üzrə sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi sığorta haqqının azı 2%-nə bərabər hesab edilir.
6.5.5. KRE-nin yuxarı həddi hesabat tarixindən əvvəlki son 5 (beş) təqvim ilinin sonuna katastrofik risk üzrə hesablanmış xalis baza sığorta haqlarının (baza sığorta haqqından təkrarsığorta haqqı çıxıldıqdan sonra qalan hissə) ən yüksək məbləğinin 150%-ni aşmamalıdır.
6.5.6. Katastrofik risk təminatı verilmiş hadisənin baş verməsi zamanı bu ehtiyat sığorta (təkrarsığorta) müqaviləsi ilə təminat verilmiş katastrofik risklərə görə verilən sığorta ödənişlərinin (sığorta ödənişləri verilənə qədər isə xalis BTZE-nin) məbləği qədər (sığorta ödənişlərində təkrarsığortaçının payı və sığorta müqaviləsi üzrə azadolma məbləğləri çıxılmaqla) azaldıla bilər.

**6.6. Şərti öhdəliklər ehtiyatı**

Şərti öhdəliklər ehtiyatı bu Qaydanın 5.5.2-ci və 5.5.3-cü yarımbəndlərinə uyğun olaraq formalaşdırılır.

## 7. Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı

7.1. Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı təkrarsığortanın mütənasib və ya qeyri-mütənasib növdə olmasından asılı olaraq müəyyən edilir.

**7.2. Qeyri-həyat sığortası sahəsində mütənasib təkrarsığorta**
7.2.1. Qazanılmamış təkrarsığorta haqqı təkrarsığortaya ötürülmüş risklərlə bağlı hər bir təkrarsığorta müqaviləsi üzrə aşağıdakı düsturla hesablanır:

burada:

QTSH – təkrarsığorta müqaviləsi üzrə qazanılmamış təkrarsığorta haqqıdır;
BTSH – təkrarsığorta müqaviləsi üzrə baza təkrarsığorta haqqıdır;
$T_1$ – təkrarsığorta təminatının müddətinin günlərlə sayıdır;
$T_2$ – təkrarsığorta təminatının başlandığı andan hesabat tarixinə qədər onun qüvvədə olduğu günlərin sayıdır.
7.2.2. Müvafiq sığorta sinfinə aid olan, təkrarsığortaya ötürülmüş risklərlə bağlı bütün təkrarsığorta müqavilələri üzrə ayrı-ayrılıqda hesablanan qazanılmamış təkrarsığorta haqlarının cəmi həmin sinif üzrə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsində təkrarsığortaçıların payını təşkil edir.
7.2.3. Qazanılmamış sığorta haqları ehtiyatının əlavə hissəsi təkrarsığortaçıların kredit reytinqinə və ya müvafiq kredit reytinqinə münasibətdə malik olduğu "Solvency" əmsalına əsasən müəyyən edilən qruplarından asılı olaraq qazanılmamış sığorta haqları ehtiyatının baza

hissəsində onların paylarına aşağıdakı cədvəldə göstərilən müvafiq əmsalların tətbiq edilməsindən sonra alınan məbləğlərin cəminə bərabərdir:

| Sıra sayı | Reytinq agentliklərinin və digər təsnifatların adları | Təkrarsığortaçıların kredit reytinqləri | "Solvency" əmsalları | Qazanılmamış sığ haqları ehtiyatını hissəsində təkrarsığortaçıl paylarına tətbiq o əmsallar |
|---|---|---|---|---|
| **1** | **I qrup təkrarsığortaçılar** | | | |
| 1.1. | Standard and Poor's (S&P) | «A-» və ya yuxarı | ≥175% | 0% |
| 1.2. | Moody's Investor Services | «A3» və ya yuxarı | | |
| 1.3. | Fitch Ratings, Inc | «A-» və ya yuxarı | | |
| 1.4. | A.M.Best Company, Inc | «a-» və ya yuxarı | | |
| 1.5. | Yerli sığortaçılar | istənilən | | |
| **2** | **II qrup təkrarsığortaçılar** | | | |
| 2.1. | Standard and Poor's (S&P) | «BBB+»-dan «BB-»-dək | ≥100% və <175% | 15% |
| 2.2. | Moody's Investor Services | «Baa1»-dən «Ba3»-dək | | |
| 2.3. | Fitch Ratings, Inc | «BBB+»-dan «BB-»-dək | | |
| 2.4. | A.M.Best Company, Inc | «bbb+»-dan «bb-»-dək | | |
| **3** | **III qrup təkrarsığortaçılar** | | | |
| 3.1. | Standard and Poor's (S&P) | «B+»-dan «CCC-»-dək | ≥75% və <100% | 25% |
| 3.2. | Moody's Investor Services | «B1»-dən «Caa3»-dək | | |
| 3.3. | Fitch Ratings, Inc | «B+»-dan «CCC-»-dək | | |
| 3.4. | A.M.Best Company, Inc | «b+»-dən «ccc-»-dək | | |
| **4** | **IV qrup təkrarsığortaçılar** | | | |
| 4.1. | I, II və III qruplara daxil olmayan təkrarsığortaçılar | | | 50% |

7.2.4. Qazanılmamış sığorta haqları ehtiyatının əlavə hissəsində təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

7.2.5. BTZE-də təkrarsığortaçıların payı təkrarsığortaya ötürülmüş hər bir sığorta (təkrarsığorta) müqaviləsi üzrə bildirilmiş tələbə əsasən hesablanır və bildirilmiş zərərlə sığorta (təkrarsığorta) müqaviləsi üzrə risklərin təkrarsığortaya ötürülmüş hissəsinin hasilinə bərabərdir.

7.2.6. BVBZE-də təkrarsığortaçıların payı müvafiq sığorta sinfinə aid olan təkrarsığortaya ötürülmüş sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ödənişlərində təkrarsığortaçıların payı nəzərə alınmaqla bu Qaydanın 5.3.1-ci yarımbəndinə müvafiq olaraq hər bir sığorta sinfi üzrə ayrılıqda müəyyən edilir.

**7.3. Qeyri-həyat sığortası sahəsində qeyri-mütənasib təkrarsığorta**

7.3.1. Risklərin qeyri-mütənasib obliqator təkrarsığorta müqaviləsi üzrə ötürüldüyü təkrarsığortaçıların QSHEB-də payı minimum depozit təkrarsığorta haqqı nəzərə alınmaqla bu Qaydanın 7.2.1-ci və 7.2.2-ci yarımbəndlərinə müvafiq olaraq müəyyən edilir.

Risklərin qeyri-mütənasib fakultativ təkrarsığorta müqaviləsi üzrə ötürüldüyü təkrarsığortaçıların QSHEB-də payı bu Qaydanın 7.2.1-ci və 7.2.2-ci yarımbəndlərinə müvafiq olaraq müəyyən edilir.

7.3.2. BTZE-də təkrarsığortaçıların payı təkrarsığortaya ötürülmüş hər bir sığorta (təkrarsığorta) müqaviləsi üzrə bildirilmiş tələbə əsasən hesablanır və sığorta (təkrarsığorta) müqaviləsi üzrə bildirilmiş zərərlə sığortaçının payının fərqinə bərabərdir.

7.3.3. BVBZE-də təkrarsığortaçıların payı müvafiq sığorta sinfinə aid olan, təkrarsığortaya ötürülmüş sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ödənişlərində təkrarsığortaçıların payı nəzərə alınmaqla bu Qaydanın 5.3.1-ci yarımbəndinə müvafiq olaraq hər bir sığorta sinfi üzrə ayrılıqda müəyyən edilir.

**7.4. Həyat sığortası sahəsində mütənasib təkrarsığorta**

**7.4.1. Təkrarsığortaya ötürülmüş həyatın qeyri-yığım sığortasına aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ehtiyatları**

7.4.1.1. Təkrarsığortaya ötürülmüş həyatın qeyri-yığım sığortasına aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ehtiyatlarında təkrarsığortaçıların payının hesablanması aşağıdakı qaydada aparılır:

7.4.1.1.1. həyatın qeyri-yığım sığortasına aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payı bu Qaydanın 7.2.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir;

7.4.1.1.2. həyatın qeyri-yığım sığortasına aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsi təkrarsığortaçıların kredit reytinqinə və ya müvafiq kredit reytinqinə münasibətdə malik olduğu "Solvency" əmsalına əsasən bu Qaydada müəyyən edilən qruplarından asılı olaraq riyazi ehtiyatların baza hissəsində onların paylarına bu Qaydanın 7.2.3-cü yarımbəndində göstərilən cədvəldəki müvafiq əmsalların tətbiq edilməsindən sonra alınan məbləğlərin cəminə bərabərdir;

7.4.1.1.3. həyatın qeyri-yığım sığortasına aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsində təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir;

7.4.1.1.4. həyatın qeyri-yığım sığortasına aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə BTZE-də təkrarsığortaçıların payı bu Qaydanın 7.2.5-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir;

7.4.1.1.5. həyatın qeyri-yığım sığortasına aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə BVBZE-də təkrarsığortaçıların payı bu Qaydanın 7.2.6-cı yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

**7.4.2. Təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ehtiyatları**

7.4.2.1. Təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payı aşağıdakı düsturla hesablanır:

burada:

$TSÖ_{g.g.d}$ – təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələrinin şərtlərində nəzərdə tutulan sığorta ödənişlərində təkrarsığortaçıların payının gətirilmiş gözlənilən dəyəridir;

$TZTX_{g.g.d}$ – təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta hadisələrinin tənzimlənməsi, o cümlədən sığorta ödənişlərinin məbləğlərinin müəyyən edilməsi ilə bağlı təkrarsığortaçıların zərərlərin tənzimlənməsi xərclərinin gətirilmiş gözlənilən dəyəridir;

$TİAX_{g.g.d}$ – təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə təkrarsığortaçıların işlərin aparılması xərclərinin gətirilmiş gözlənilən dəyəridir;

$TSH_{g.g.d}$ – təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə təkrarsığortaçıların hesabat tarixindən sonra almalı olduqları təkrarsığorta haqlarının gətirilmiş gözlənilən dəyəridir.

7.4.2.2. Təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə ayrı-ayrılıqda hesablanmış riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların paylarının cəmi həmin sinif üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payını təşkil edir.

7.4.2.3. Təkrarsığortaya ötürülmüş həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsi bu Qaydanın 7.4.1.1.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

7.4.2.4. Həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsində təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

7.4.2.5. Həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə BTZE-də təkrarsığortaçıların payı bu Qaydanın 7.2.5-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

**7.4.3. Təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ehtiyatları**

7.4.3.1. Təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payı aşağıdakı düsturla hesablanır:

burada:

$TSÖ_{g.g.d}$ – təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələrinin şərtlərində nəzərdə tutulan sığorta ödənişlərində təkrarsığortaçıların payının gətirilmiş gözlənilən dəyəridir;

$TİAX_{g.g.d}$ – təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə təkrarsığortaçıların işlərin aparılması xərclərinin gətirilmiş gözlənilən dəyəridir;

$TSH_{g.g.d}$ – təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə təkrarsığortaçıların hesabat tarixindən sonra almalı olduqları təkrarsığorta haqlarının gətirilmiş gözlənilən dəyəridir. Təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ödənişlərinin verilməsinin başlanğıc tarixi hesabat tarixindən əvvəl gəldikdə $TSH_{g.g.d}$ sıfıra bərabər olur.

7.4.3.2. Təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə müntəzəm sığorta ödənişlərində təkrarsığortaçıların payının məbləği artdıqda riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payı aşağıdakı kimi müəyyən edilir:

7.4.3.2.1. sığorta ödənişləri dövründə bu Qaydanın 7.4.3.1-ci yarımbəndində nəzərdə tutulmuş qaydada. Bu zaman sığorta ödənişlərində

təkrarsığortaçıların payının gətirilmiş gözlənilən dəyərinin hesablanması sığorta ödənişlərində təkrarsığortaçıların payının artımı nəzərə alınmaqla aparılır;

7.4.3.2.2. sığorta haqlarının yığımı dövründə aşağıdakı məbləğlərin böyük olanı əsasında:

7.4.3.2.2.1. sığorta ödənişlərində təkrarsığortaçıların payının gətirilmiş gözlənilən dəyəri ilə bu Qaydanın 7.4.3.1-ci yarımbəndinə müvafiq olaraq hesablanmış riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payının məbləğinin cəmi. Bu zaman sığorta ödənişlərində təkrarsığortaçıların payının gətirilmiş gözlənilən dəyərinin hesablanması sığorta ödənişlərində təkrarsığortaçıların payının artması nəzərə alınmamaqla aparılır və təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta müqaviləsi üzrə hesablanan və bölüşdürülən əlavə gəlirlərdə təkrarsığortaçıların payının məbləğinə bərabər olur;

7.4.3.2.2.2. riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payının bu Qaydanın 7.4.3.1-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilmiş məbləği (təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə sığorta ödənişlərində təkrarsığortaçıların payının sığortaçının əlavə gəlirlərində təkrarsığortaçıların payı hesabına artırılması nəzərə alınmaqla).

7.4.3.3. Təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə ayrı-ayrılıqda hesablanmış riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların paylarının cəmi həmin sinif üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payını təşkil edir.

7.4.3.4. Təkrarsığortaya ötürülmüş annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsi bu Qaydanın 7.4.1.1.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

7.4.3.5. Annuitet sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsində təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

**7.5. Həyat sığortası sahəsində qeyri-mütənasib təkrarsığorta**

7.5.1. Həyatın qeyri-yığım sığortasına aid sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payı bu Qaydanın 7.2.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

7.5.2. Həyatın qeyri-yığım sığortasına aid sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsi bu Qaydanın 7.4.1.1.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

7.5.3. Həyatın qeyri-yığım sığortasına aid sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsində təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

7.5.4. Həyatın qeyri-yığım sığortasına aid sığorta (təkrarsığorta) müqavilələri üzrə BTZE-də təkrarsığortaçıların payı bu Qaydanın 7.3.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

7.5.5. Həyatın qeyri-yığım sığortasına aid sığorta (təkrarsığorta) müqavilələri üzrə BVBZE-də təkrarsığortaçıların payı bu Qaydanın 7.3.3-cü yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

7.5.6. Həyatın yaşam sığortası və annuitet sığortası siniflərinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payı bu Qaydanın 7.4.2-ci və 7.4.3-cü yarımbəndlərinə müvafiq olaraq müəyyən edilir.

7.5.7. Həyatın yaşam sığortası və annuitet sığortası siniflərinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların baza hissəsində təkrarsığortaçıların payı həyatın yaşam sığortası və annuitet sığortası siniflərinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların baza hissəsinin məbləğini aşmamalıdır.

7.5.8. Həyatın yaşam sığortası və annuitet sığortası siniflərinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsi bu Qaydanın 7.4.1.1.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

7.5.9. Həyatın yaşam sığortası və annuitet sığortası siniflərinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə riyazi ehtiyatların əlavə hissəsində təkrarsığortaçıların payı sıfıra bərabər qəbul edilir.

7.5.10. Həyatın yaşam sığortası sinfinə aid olan sığorta (təkrarsığorta) müqavilələri üzrə BTZE-də təkrarsığortaçıların payı bu Qaydanın 7.3.2-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilir.

## 8. Qeyri-həyat sığortası sinifləri üzrə zərərlilik dərəcəsinin müəyyən edilməsi

**8.1. Zərərlilik dərəcəsinin müəyyən edilməsi üçün aşağıdakı anlayışlardan istifadə edilir:**

8.1.1. sığorta (təkrarsığorta) müqavilələri – hesabat dövrü ərzində bağlanmış sığorta müqavilələri və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığorta müqavilələri;

8.1.2. xərclər – sığorta (təkrarsığorta) haqlarından hesablanmış məcburi ayırmalar və işlərin aparılması xərcləri;

8.1.3. sığorta hadisələri ili – hesabat dövrü ərzində baş vermiş bütün sığorta hadisələrinə münasibətdə müəyyən edilən dövr;

8.1.4. məcmu zərərlər – sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişlərinin, zərərlərin tənzimlənməsi xərclərinin, həmçinin sığorta hadisələri ili üzrə hesabat dövrünün sonuna zərərlər ehtiyatının cəmi;

8.1.5. zərərlərin tənzimlənməsi xərcləri – sığorta ödənişlərinin məbləğinə daxil olmayan, lakin sığorta ödənişlərinin verilməsi ilə əlaqədar olan təşkilati, texniki, hüquqi və qiymətləndirmə xidmətlərinin əldə edilməsi üzrə sığortaçının əlavə xərclərinin cəmi;

8.1.6. sığorta hadisələri ili üzrə xalis sığorta ödənişləri – sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişlərindən təkrarsığortaçıların bu ödənişlərdəki payı çıxıldıqdan sonra qalan məbləğ;

8.1.7. zərərlər ehtiyatında dəyişmələr – zərərlər ehtiyatının hesabat dövrünün sonuna olan məbləği ilə həmin dövrün əvvəlinə olan məbləğinin fərqi;

8.1.8. zərərlər ehtiyatında dəyişmələrin xalis məbləği – zərərlər ehtiyatında təkrarsığortaçıların payı çıxılmaqla zərərlər ehtiyatında dəyişmələr;

8.1.9. qazanılmış məcmu sığorta haqqı – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarının və hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsinin cəmindən həmin dövrün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini çıxdıqdan sonra qalan məbləğ;

8.1.10. sığorta hadisələri ili üzrə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı – baş verməsi haqqında qanunvericiliklə və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat dövrü ərzində sığortaçıya bildirilmiş, lakin sığorta ödənişləri verilməmiş, yaxud tam verilməmiş sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı formalaşdırılan ehtiyat (sığorta ehtiyatları üçün bu Qaydaya 3 nömrəli Əlavədəki 8-3 №-li Formanın, sığorta ehtiyatlarında təkrarsığortaçının payı üçün isə 8-11 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəmi. Bu Qaydaya 3 nömrəli Əlavədəki 8-11 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəmi 8-3 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəmindən böyük olduğu halda, 8-11 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəmi 8-3 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəminə bərabər götürülür);

8.1.11. sığorta hadisələri ili üzrə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı – baş verməsi haqqında qanunvericiliklə və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat dövrü ərzində sığortaçıya bildirilməmiş sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı formalaşdırılan ehtiyat (sığorta ehtiyatları üçün bu Qaydaya 3 nömrəli Əlavədəki 8-8 №-li Formanın, sığorta ehtiyatlarında təkrarsığortaçının payı üçün isə 8-12 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəminin 1,03-ə hasili. Bu Qaydaya 3 nömrəli Əlavədəki 8-12 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəminin 1.03-ə hasili 8-8 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəminin 1.03-ə hasilindən böyük olduğu halda, 8-12 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəminin 1.03-ə hasili 8-8 №-li Formanın axırıncı sütununda son 4 (dörd) rüb üzrə hədlərin cəminin 1.03-ə hasilinə bərabər götürülür);

8.1.12. sığorta hadisələri ili üzrə hesabat dövrünün sonuna zərərlər ehtiyatı – sığorta hadisələri ili üzrə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı ilə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatının cəmi.

**8.2. Zərərlilik dərəcəsi**

8.2.1. Zərərlilik dərəcəsi sığorta fəaliyyətinin ümumilikdə və ayrı-ayrı sığorta sinifləri üzrə səmərəliliyini, habelə sığortaçının maliyyə vəziyyətini səciyyələndirir.

8.2.2. Zərərlilik dərəcəsi zərər əmsalı ilə xərc əmsalının cəminə bərabərdir.

8.2.3. Zərərlilik dərəcəsi ilə bağlı hesablamalarda istifadə olunan bütün göstəricilər eyni hesabat dövrünə aid olmalıdır.

**8.3. Zərər əmsalının hesablanması**

8.3.1. Zərər əmsalı təkrarsığortaçıların payı həm çıxılmamaqla, həm də çıxılmaqla hesablanır.

8.3.2. Təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərər əmsalı ayrılıqda hər bir sığorta sinfi və bütün sığorta portfeli üzrə məcmu zərərlərin qazanılmış məcmu sığorta haqlarına nisbətinə bərabərdir:

burada:

T – təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərər əmsalıdır;

M – məcmu zərərlərdir;

Q – qazanılmış məcmu sığorta haqlarıdır.

8.3.3. Təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərər əmsalı ayrılıqda hər bir sığorta sinfi və bütün sığorta portfeli üzrə təkrarsığortaçıların payı çıxılmaqla hesablanan məcmu zərərlərin qazanılmış xalis sığorta haqlarına (sığorta haqqından təkrarsığorta haqqı çıxıldıqdan sonra qalan hissə) nisbətinə bərabərdir:

burada:

Tn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərər əmsalıdır;

Mn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan məcmu zərərlərdir;

Qn – qazanılmış xalis sığorta haqlarıdır.

8.3.4. Qazanılmış xalis sığorta haqları aşağıdakı düsturla hesablanır:

burada:

Qn – qazanılmış xalis sığorta haqlarıdır;
A – hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsidir;
B – hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payıdır;
C – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarıdır;
E – hesabat dövrü ərzində təkrarsığortaya ötürülmüş risklər üzrə hesablanmış təkrarsığorta haqlarıdır;
Ə – hesabat dövrü ərzində təkrarsığortaya ötürülmüş risklər üzrə təkrarsığortalılara hesablanmış komisyon muzddur;
F – hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsidir;
K – hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payıdır.

**8.4. Xərc əmsalının hesablanması**

Xərc əmsalı hər bir sığorta sinfi və sığorta portfeli üzrə xərclərin qazanılmış məcmu sığorta haqlarına nisbətinə bərabərdir:

burada:
E – xərc əmsalıdır;
X – məcmu xərclərdir;
Q – qazanılmış məcmu sığorta haqlarıdır.

**8.5. Zərərlilik dərəcəsinin hesablanması**

8.5.1. Hər bir sığorta sinfi və bütün sığorta portfeli üzrə zərərlilik dərəcəsi təkrarsığortaçıların payı həm çıxılmamaqla, həm də çıxılmaqla hesablanır.

8.5.2. Təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərərlilik dərəcəsi təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərər əmsalının və xərc əmsalının cəminə bərabərdir:

$$Z=T+E$$

burada:
Z – təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərərlilik dərəcəsidir;
T – təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərər əmsalıdır;
E – xərc əmsalıdır.

8.5.3. Təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərərlilik dərəcəsi təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərər əmsalının və xərc əmsalının cəminə bərabərdir:

$$Zn = Tn + E$$

burada:
Zn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərərlilik dərəcəsidir;
Tn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərər əmsalıdır;
E – xərc əmsalıdır.

## 9. Sığorta ehtiyatları ilə bağlı məlumatlar və hesabatlar

9.1. Sığorta ehtiyatları ilə bağlı hesabatlar sığortaçı tərəfindən bu Qaydaya 3 və 4 nömrəli əlavələrdə müəyyən edilmiş müvafiq formalarda, bu Qaydanın 4.9-cu bəndində qeyd edilən jurnallar isə bu Qaydaya 1 və 2 nömrəli əlavələrdə müəyyən edilmiş müvafiq formalarda aşağıdakı tələblərə riayət olunmaqla rüblük olaraq tərtib edilməli və hər rüb başa çatdıqdan sonra 20 (iyirmi) gün müddətində sığortaçının İdarə Heyətinin sədri və baş mühasibinin (və ya onların vəzifələrini müvəqqəti icra edən şəxslərin) gücləndirilmiş elektron imzaları ilə təsdiq edilərək Mərkəzi Bankın elektron informasiya sistemi vasitəsi ilə təqdim edilməlidir:

9.1.1. hesabatlarda və jurnallarda müvafiq məbləğlər hesabat tarixinin sonuna Mərkəzi Bankın rəsmi məzənnəsinə uyğun olaraq manatla ifadə olunmalıdır;

9.1.2. hesabatlarda və jurnallarda hər hansı formada düzəliş edilməsinə və ya pozulmuş, yaxud tam və ya qismən oxunmayan məlumatların mövcudluğuna yol verilməməlidir.

9.2. Sığortaçı sığorta ehtiyatlarının hesablanması üçün istifadə olunmuş ölüm və əlillik cədvəllərini və riyazi modellərin əsaslandırmasını illik hesabatlarla birgə təqdim etməlidir. Riyazi modellərin əsaslandırması hər bir sinif üzrə olmalı və məsul aktuarinin imzası ilə təsdiq olunmalıdır.

*“Həyat sığortası və qeyri-həyat sığortası*
*üzrə sığorta ehtiyatlarının formalaşdırılması*
*Qaydası”na Əlavə 1*

**“SIĞORTA (TƏKRARSIĞORTA) MÜQAVİLƏLƏRİNİN UÇOTU” JURNALI**

*(manatla)*

| Sıra sayı | Sığorta sinifləri | Sığorta (təkrarsığorta) müqavilələri | Sığorta (təkrarsığorta) müqaviləsinin bağlandığı tarix | Sığorta (təkrarsığorta) təminatının başlanğıc tarixi | Sığorta (təkrarsığorta) təminatının son tarixi | Sığorta məbləği | Sığorta (təkrarsığorta) haqqı | | Sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi | | Hesablanmış komisyon muzd | Hesablanmış komisyon muzdun katastrofik risk təminatına düşən hissəsi | Sığorta (təkrarsığorta) haqlarından məcburi ayırmalar | Xitam verilmiş sığorta (təkrarsığorta) müqavilələri haqqında məlumat | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | *Hesablanmışdır* | *Ödənilmişdir* | *Hesablanmışdır* | *Ödənilmişdir* | | | | *Xitam verildiyi tarix* | *Qaytarılmalı olan sığorta (təkrarsığorta) haqqı və ya qaytarılan məbləğ* |
| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | XIII | XIV | XV | XVI |

**SIĞORTA (TƏKRARSIĞORTA) MÜQAVİLƏLƏRİNİN UÇOTU JURNALI (davamı)**

*(manatla)*

| Təkrarsığortaya ötürülmüş risklər üzrə məlumat | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təkrarsığortaçının adı | Təkrarsığortaçının öhdəliyinin son həddi | Hesablanmış təkrarsığorta haqqı | | | | Hesablanmış təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi | | | | Ödənilmiş təkrarsığorta haqqı | Ödənilmiş təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi |
| | | *I qrup təkrarsığortaçılar* | *II qrup təkrarsığortaçılar* | *III qrup təkrarsığortaçılar* | *IV qrup təkrarsığortaçılar* | *I qrup təkrarsığortaçılar* | *II qrup təkrarsığortaçılar* | *III qrup təkrarsığortaçılar* | *IV qrup təkrarsığortaçılar* | | |
| XVII | XVIII | XIX | XX | XXI | XXII | XXIII | XXIV | XXV | XXVI | XXVII | XXVIII |

**SIĞORTA (TƏKRARSIĞORTA) MÜQAVİLƏLƏRİNİN UÇOTU JURNALI (davamı)**

*(manatla)*

| Təkrarsığortaya ötürülmüş risklər üzrə məlumat | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Hesablanmış komisyon muzd | | | | Hesablanmış komisyon muzdun katastrofik risk təminatına düşən hissəsi | | | | Xitam verilmiş təkrarsığorta müqavilələri haqqında məlumat | | Təkrarsığorta müqaviləsinin nömrəsi | Təkrarsığorta müqaviləsinin bağlandığı tarix | Təkrarsığorta təminatının başlanğıc tarixi | Təkrarsığorta təminatının son tarixi |
| *I qrup təkrarsığortaçılar* | *II qrup təkrarsığortaçılar* | *III qrup təkrarsığortaçılar* | *IV qrup təkrarsığortaçılar* | *I qrup təkrarsığortaçılar* | *II qrup təkrarsığortaçılar* | *III qrup təkrarsığortaçılar* | *IV qrup təkrarsığortaçılar* | *Xitam verildiyi tarix* | *Qaytarılmalı olan təkrarsığorta haqqı* | | | | |

| XXIX | XXX | XXXI | XXXII | XXXIII | XXXIV | XXXV | XXXVI | XXXVII | XXXVIII | XXXIX | XL | XLI | XLII |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|

**Qeyd:**

1. "Sığorta (təkrarsığorta) müqavilələri" dedikdə, sığorta müqavilələri və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığorta müqavilələri başa düşülür.
2. Qrup halında olan sığorta (təkrarsığorta) müqavilələri üzrə hər bir sığorta predmeti ayrıca göstərilməlidir (tibbi sığorta və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta istisna olmaqla).

*"Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydası"na Əlavə 2*

**ZƏRƏRLƏRİN UÇOTU JURNALI**

***(manatla)***

| Sıra sayı | Sığorta sinifləri | Sığorta (təkrarsığorta) müqavilələri | Sığorta məbləği | Sığorta hadisəsinin baş verdiyi tarix | Sığorta tələbinin daxil olduğu tarix | Bildirilmiş zərərin ehtimal olunan ilkin məbləği | Sığorta ödənişinin ehtimal olunan ilkin məbləği (manatla) | | | Hesablanmış zərərin məbləği | Hesablanmış sığorta ödənişi | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | *Cəmi* | *Təkrarsığortalının payı* | *Təkrarsığortaçının payı* | | *Cəmi* | *Təkrarsığortalının payı* | *Təkrarsığortaçının payı* |
| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | XIII | XIV |

**ZƏRƏRLƏRİN UÇOTU JURNALI (davamı)**

***(manatla)***

| Verilmiş sığorta ödənişi | | | | Ödəniş kodu | İmtina tarixi | İmtina səbəbi | Subroqasiya gəlirləri | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| *Tarixi* | *Cəmi* | *Təkrarsığortalının payı* | *Təkrarsığortaçının payı* | | | | *Hesablanmış subroqasiya məbləği* | *Ödənilmiş subroqasiya gəlirinin məbləği* | *Subroqasiya gəlirinin daxil olduğu tarix* |
| XV | XVI | XVII | XVIII | XIX | XX | XXI | XXII | XXIII | XXIV |

**Qeyd:**

1. "Sığorta (təkrarsığorta) müqavilələri" dedikdə, sığorta müqavilələri və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığorta müqavilələri başa düşülür.
2. VI sütunda sığorta sinfindən asılı olaraq, hesabat tarixindən əvvəlki 12 (on iki) və ya 20 (iyirmi) rüb ərzində verilmiş sığorta ödənişlərinin və bildirilmiş, lakin hesabat tarixinə qədər tənzimlənməmiş zərərlərin aid olduğu sığorta tələblərinin daxil olduğu tarixlər göstərilir.
3. Qrup halında olan sığorta (təkrarsığorta) müqavilələrində sığorta hadisələri hər bir sığorta predmeti üzrə ayrıca göstərilməlidir (tibbi sığorta istisna olmaqla).
4. Ödəniş kodu – sığortaçının sığorta ödənişinin verilməsi ilə bağlı məlumatları "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 34-1-ci maddəsində nəzərdə tutulmuş elektron informasiya sisteminə daxil etməsi zamanı müvafiq sistem tərəfindən avtomatik qaydada verilən koddur.
5. XXI sütunun doldurulması zamanı aşağıdakı kodlardan istifadə edilir:

| | |
|---|---|
| A1 | Mülki Məcəllənin 935.1.1 maddəsinə əsasən imtina olunduqda |
| A2 | Mülki Məcəllənin 935.1.2 maddəsinə əsasən imtina olunduqda |
| A3 | Mülki Məcəllənin 935.1.3 maddəsinə əsasən imtina olunduqda |
| A4 | Mülki Məcəllənin 935.1.4 maddəsinə əsasən imtina olunduqda |
| A5 | Mülki Məcəllənin 935.1.5 maddəsinə əsasən imtina olunduqda |
| A6 | Mülki Məcəllənin 935.1.6 maddəsinə əsasən imtina olunduqda |
| A7 | Mülki Məcəllənin 935.1.7 maddəsinə əsasən imtina olunduqda |
| A8 | Mülki Məcəllənin 935.1.8 maddəsinə əsasən imtina olunduqda |
| A9 | Mülki Məcəllənin 935.1.9 maddəsinə əsasən imtina olunduqda |
| A10 | Mülki Məcəllənin 935.1.10 maddəsinə əsasən imtina olunduqda |
| A11 | Digər imtinalar |

*"Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydası"na Əlavə 3*

**Qeyri-həyat sığortası üzrə sığorta ehtiyatları ilə bağlı hesabat formalarına dair izah**

| | | |
|---|---|---|
| 1 | **Forma 8-0** | Sığortaçıların zərərlilik dərəcəsinin qeyri-həyat sığortası sinifləri üzrə ayrı-ayrılıqda müəyyən edilməsi üçün doldurulur. |
| 2 | **Forma 8-1** | Qeyri-həyat sığortası sinifləri üzrə baza sığorta haqqı və baza sığorta haqqının katastrofik risk təminatına düşən hissəsini hesablamaq üçün doldurulur. |
| 3 | **Forma 8-1-1** | İcbari sığorta növləri üzrə baza sığorta haqqı və baza sığorta haqqının katastrofik risk təminatına düşən hissəsini hesablamaq üçün doldurulur. |
| 4 | **Forma 8-2** | Qeyri-həyat sığortası sinifləri üzrə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini və katastrofik risk təminatına düşən hissəsini hesablamaq üçün doldurulur. |
| 5 | **Forma 8-3** | Qeyri-həyat sığortası sinifləri üzrə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatını hesablamaq üçün doldurulur. |
| 6 | **Forma 8-4** | Qeyri-həyat sığortası sinifləri üzrə təkrarsığortaya ötürülmüş risklərlə bağlı baza təkrarsığorta haqqını v ə baza təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsini hesablamaq üçün doldurulur. |
| 7 | **Forma 8-5** | Qeyri-həyat sığortası sinifləri üzrə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsində təkrarsığortaçıların payını və katastrofik risk təminatına düşən hissəsini hesablamaq üçün doldurulur. |
| 8 | **Forma 8-6** | Qeyri-həyat sığortası sinifləri üzrə qazanılmamış sığorta haqları ehtiyatının əlavə hissəsini hesablamaq üçün doldurulur. |
| 9 | **Forma 8-7** | Qeyri-həyat sığortası sinifləri üzrə qazanılmış məcmu sığorta (təkrarsığorta) haqqını və katastrofik risk təminatına düşən hissəsini hesablamaq üçün doldurulur. |
| 10 | **Forma 8-8** | Qeyri-həyat sığortası sinifləri üzrə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatının üçbucaq metodu ilə hesablanması üçün doldurulur. |
| 11 | **Forma 8-9** | Qeyri-həyat sığortası sinifləri üzrə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatını hesablamaq üçün doldurulur. |
| 12 | **Forma 8-10** | Qeyri-həyat sığortası sinifləri üzrə təkrarsığortaya ötürülmüş risklərlə bağlı qazanılmış məcmu təkrarsığorta haqlarını və katastrofik risk təminatına düşən hissəsini hesablamaq üçün doldurulur. |
| 13 | **Forma 8-11** | Qeyri-həyat sığortası sinifləri üzrə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların payını hesablamaq üçün doldurulur. |
| 14 | **Forma 8-12** | Qeyri-həyat sığortası sinifləri üzrə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların payının üçbucaq metodu ilə hesablanması üçün doldurulur. |
| 15 | **Forma 8-13** | Qeyri-həyat sığortası sinifləri üzrə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların payını hesablamaq üçün doldurulur. |
| 16 | **Forma 8-14** | Qeyri-həyat sığortası sinifləri üzrə katastrofik risklər ehtiyatını hesablamaq üçün doldurulur. |
| 17 | **Forma 8-15** | Qeyri-həyat sığortası üzrə xalis sığorta ehtiyatlarını hesablamaq üçün doldurulur. |

**Forma № 8-0**

**Sığortaçıların zərərlilik dərəcəsinin qeyri-həyat sığortası üzrə müəyyən edilməsi haqqında**
**HESABAT**

_______________________________________
(sığortaçının (təkrarsığortaçının) adı)
**«____»______________20____ c _ il tarixinə**

| Sıra sayı | Sığorta sinfi | Hesablanmış məcmu sığorta (təkrarsığorta) haqları | Hesabat dövrü ərzində qaytarılmış sığorta (təkrarsığorta) haqları | Hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi | Hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi | Qazanılmış məcmu sığorta haqları *(III+V-VI)* | Təkrarsığortaya ötürülmüş risklər üzrə hesablanmış təkrarsığorta haqları | Hesabat dövrü ərzində təkrarsığortaya ötürülmüş risklər üzrə qaytarılmış təkrarsığorta haqları | Hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payı | Hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payı | Təkrarsığorta ötürülmüş risklər üzr hesablanmı komisyon mu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII |
| 1 | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | |
| Yekun | | | | | | | | | | | |

**Sığortaçıların zərərlilik dərəcəsinin qeyri-həyat sığortası üzrə müəyyən edilməsi haqqında**
**HESABAT (davamı)**

| Sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişləri | Sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişlərində təkrarsığortaçıların payı | Sığorta hadisələri ili üzrə xalis sığorta ödənişləri *(XIV-XV)* | Sığorta hadisələri ili üzrə hesabat dövrünün sonuna zərərlər ehtiyatı | Sığorta hadisələri ili üzrə zərərlər ehtiyatında təkrarsığortaçıların payı çıxılmaqla hesabat dövrünün sonuna zərərlər ehtiyatı | Zərərlərin tənzimləməsi xərcləri | Xərclər | Təkrarsığortaçıların payı çıxılmamaqla zərər əmsalı, % *(XIV+XVII+XIX) /(VII-IV)* | Təkrarsığortaçıların payı çıxılmaqla zərər əmsalı, % *(XVI+XVIII+XIX)/(XIII-IV+IX)* | Xərc əmsalı, % *(XX/(VII-IV))* | Təkrarsığortaçıların payı çıxılmamaqla zərərlilik dərəcəsi, % *(XXI+XXIII)* | Tək zər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| XIV | XV | XVI | XVII | XVIII | XIX | XX | XXI | XXII | XXIII | XXIV | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

**Forma № 8-1**

**Baza sığorta haqqı və baza sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi**

_______________________________________
(sığortaçının (təkrarsığortaçının) adı)
**«____»______________20____ c _ il tarixinə**

Sığorta sinfi _____________________________

| Sığorta müqavilələri | Sığorta müqaviləsinin bağlandığı tarix | Hesablanmış sığorta haqqı | Hesablanmış komisyon muzd *(hesablanmış sığorta haqqının 15%-dən çox olmamaqla)* | Baza sığorta haqqı *(III-IV)* | Hesablanmış sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi | Katastrofik risk təminatı üzrə komisyon muzd *(hesablanmış sığorta haqqının katastrofik risk təminatına düşən hissəsinin 15%-dən çox olmamaqla)* | Baza sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi *(VI-VII)* |
|---|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII | VIII |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| Yekun BSH | | | | | | | |
| **Təkrarsığorta müqavilələri** *(təkrarsığortaya qəbul edilmiş risklər üzrə)* | **Təkrarsığorta müqaviləsinin bağlandığı tarix** | **Hesablanmış təkrarsığorta haqqı** | **Hesablanmış komisyon muzd** *(hesablanmış təkrarsığorta haqqının 15%-dən çox olmamaqla)* | **Baza təkrarsığorta haqqı** *(III- IV)* | **Hesablanmış təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** | **Katastrofik risk təminatı üzrə komisyon muzd** *(hesablanmış təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsinin 15%-dən çox olmamaqla)* | **Baza təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** *(VI-VII)* |
| I | II | III | IV | V | VI | VII | VIII |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| Yekun BTSH | | | | | | | |

**Forma № 8-1-1**

**İcbari sığorta növləri üzrə baza sığorta haqqı və baza sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi**

__________________________________________
(sığortaçının (təkrarsığortaçının) adı)
**«____»______________20____ c _ il tarixinə**

Sığorta sinfi ______________________________

| **Sığorta müqavilələri** | **Sığorta müqaviləsinin bağlandığı tarix** | **Hesablanmış sığorta haqqı** | **Məcburi ayırmalar** *(hesablanmış sığorta haqqının 1%-i)* | **Hesablanmış komisyon muzd** *(hesablanmış sığorta haqqının 15%-dən çox olmamaqla)* | **Baza sığorta haqqı** *(III-IV-V)* | **Hesablanmış sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** | **Katastrofik risk təminatı üzrə komisyon muzd** *(hesablanmış sığorta haqqının katastrofik risk təminatına düşən hissəsinin 15%-dən çox olmamaqla)* | **Baza sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** *(VII-VIII)* |
|---|---|---|---|---|---|---|---|---|
| **I** | **II** | **III** | **IV** | **V** | **VI** | **VII** | **VIII** | **IX** |
| 1 | | | | | | | | |
| 2 | | | | | | | | |
| … | | | | | | | | |
| **Yekun BSH** | | | | | | | | |

| **Təkrarsığorta müqavilələri** *(təkrarsığortaya qəbul edilmiş risklər üzrə)* | **Təkrarsığorta müqaviləsinin bağlandığı tarix** | **Hesablanmış təkrarsığorta haqqı** | **Hesablanmış komisyon muzd** *(hesablanmış təkrarsığorta haqqının 15%-dən çox olmamaqla)* | **Baza təkrarsığorta haqqı** *(III-IV)* | **Hesablanmış təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** | **Katastrofik risk təminatı üzrə komisyon muzd** *(hesablanmış təkrarsığortahaqqının katastrofik risk təminatına düşən hissəsinin 15%-dən çox olmamaqla)* | **Baza təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** *(VI- VII)* |
|---|---|---|---|---|---|---|---|
| **I** | **II** | **III** | **IV** | **V** | **VI** | **VII** | **VIII** |
| 1 | | | | | | | |
| 2 | | | | | | | |
| … | | | | | | | |
| **Yekun BTSH** | | | | | | | |

**Forma № 8-2**

**Qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi və katastrofik risk təminatına düşən hissəsi**

__________________________________________
(sığortaçının (təkrarsığortaçının) adı)
**«____»______________20____ c _ il tarixinə**

Sığorta sinfi ______________________________

| **Sığorta müqavilələri** | **Baza sığorta haqqı** | **Sığorta təminatının müddəti** *(günlərlə)* | **Sığorta təminatının başlandığı andan hesabat tarixinə qədər günlərin sayı** | **Qazanılmamış sığorta haqqı** *(IIx(III-IV)/III)* | **Baza sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** | **Qazanılmamış sığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** *(VIx(III-IV)/III)* |
|---|---|---|---|---|---|---|
| **I** | **II** | **III** | **IV** | **V** | **VI** | **VII** |
| | | | | | | |
| | | | | | | |
| Aralıq yekun | | X | X | | | |
| **Təkrarsığorta müqavilələri** *(təkrarsığortaya qəbul edilmiş risklər üzrə)* | **Baza təkrarsığorta haqqı** | **Təkrarsığorta təminatının müddəti** *(günlərlə)* | **Təkrarsığorta təminatının başlandığı andan hesabat tarixinə qədər günlərin sayı** | **Qazanılmamış təkrarsığorta haqqı** *(IIx(III- IV)/III)* | **Baza təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi** | **Qazanılmamış təkrarsığorta haqının katastrofik risk təminatına düşən hissəsi** *(VIx(III-IV)/III)* |
| **I** | **II** | **III** | **IV** | **V** | **VI** | **VII** |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Aralıq yekun | | X | X | | | |
| **Yekun QSHEB** | | **X** | **X** | | | |

**Qeyd:**
1. II sütunda bu Qaydaya 3 nömrəli əlavədəki 8-1 №-li Formanın V sütunu üzrə alınan məbləğlər göstərilir.
2. "Yekun QSHEB" sətri üzrə V sütunda həmin sütun üzrə əvvəlki sətirlərdəki "Aralıq yekun"ların cəmi göstərilir.

**Forma № 8-3**

**Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı**

__________________________________________ (sığortaçının
(təkrarsığortaçının) adı)

**«____»______________20____ c _ il tarixinə**
Sığorta sinfi ______________________________

| **Sığorta hadisələrinin baş verdiyi və (və ya) sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verildiyi (şərtlərinin dəyişdirildiyi) rübləri** | **Sətrin kodu** | **Bildirilmiş, lakin tənzimlənməmiş zərərlərin hesabat tarixinə məbləği** | **Sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi (şərtlərinin dəyişdirilməsi) ilə əlaqədar sığortalılara (təkrarsığortalılara) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının hesabat tarixinə məbləği** | **Zərərlərin tənzimlənməsi xərcləri** *(III+IV)x0,03* | **Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı** *(III+IV+V)* |
|---|---|---|---|---|---|
| **I** | **II** | **III** | **IV** | **V** | **VI** |
| rüb 13 | | | | | |
| rüb 12 | | | | | |
| rüb 11 | | | | | |
| rüb 10 | | | | | |
| rüb 9 | | | | | |
| rüb 8 | | | | | |
| rüb 7 | | | | | |
| rüb 6 | | | | | |
| rüb 5 | | | | | |
| rüb 4 | | | | | |
| rüb 3 | | | | | |
| rüb 2 | | | | | |
| rüb 1 | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Hesabat tarixi ilə qurtaran rüb | | | | | |
| **Yekun BTZE** | | | | | |

**Qeyd:**
1. Bu Formada "sığorta (təkrarsığorta) müqavilələri" dedikdə, sığorta müqavilələri və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığorta müqavilələri başa düşülür.
2. Sığortaçının bu Formada əks olunmayan rüblər üçün tənzimlənməmiş zərərləri və (və ya) vaxtından əvvəl xitam verilmiş sığorta (təkrarsığorta) müqavilələri olduqda bu formaya zəruri sayda rüblər əlavə edilir.
3. III və IV sütunların doldurulması üçün "Sığorta (təkrarsığorta) müqavilələrinin uçotu jurnalı" və "Zərərlərin uçotu jurnalı"ndan istifadə edilir.

**Forma № 8-4**

**Baza təkrarsığorta haqqı və baza təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi**

__________________________________________
(sığortaçının (təkrarsığortaçının) adı)
**«____»______________20____ c _ il tarixinə**

Sığorta sinfi ______________________________

| Təkrarsığorta müqavilələri *(təkrarsığortaya ötürülmüş risklər üzrə)* | Təkrarsığorta müqaviləsinin bağlandığı tarix | Hesablanmış təkrarsığorta haqqı | Komisyon muzd | Baza təkrarsığorta haqqı *(III-IV)* | Hesablanmış təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi | Katastrofik risk təminatı üzrə komisyon muzd | Baza təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi *(VI-VII)* |
|---|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII | VIII |
| **I qrup təkrarsığortaçılar** | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| Aralıq yekun | X | | | | | | |
| **II qrup təkrarsığortaçılar** | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| Aralıq yekun | X | | | | | | |
| **III qrup təkrarsığortaçılar** | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| Aralıq yekun | X | | | | | | |
| **IV qrup təkrarsığortaçılar** | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| Aralıq yekun | X | | | | | | |
| **Yekun BTSH** | X | | | | | | |

**Forma № 8-5**

**Qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsində təkrarsığortaçıların payı və katastrofik risk təminatına düşən hissəsi**

__________________________________________
(sığortaçının (təkrarsığortaçının) adı)
**«____»______________20____ c _ il tarixinə**

Sığorta sinfi ______________________________

| Təkrarsığorta müqavilələri *(təkrarsığortaya ötürülmüş risklər üzrə)* | Baza təkrarsığorta haqqı | Təkrarsığorta təminatının müddəti *(günlərlə)* | Təkrarsığorta təminatının başlandığı andan hesabat tarixinə qədər günlərin sayı | Qazanılmamış təkrarsığorta haqqı *(IIx(III- IV)/III)* | Baza təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi | Qazanılmamış təkrarsığorta haqqının katastrofik risk təminatına düşən hissəsi *(VIx(III- IV)/III)* |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| **I qrup təkrarsığortaçılar** | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Aralıq yekun | | X | X | | | |
| **II qrup təkrarsığortaçılar** | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Aralıq yekun | | X | X | | | |
| **III qrup təkrarsığortaçılar** | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Aralıq yekun | | X | X | | | |
| **IV qrup təkrarsığortaçılar** | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Aralıq yekun | | X | X | | | |
| **Yekun QSHEB** | | X | X | | | |

**Qeyd:**
1. II sütunda bu Qaydaya 3 nömrəli Əlavədəki 8-4 №-li Formanın V sütunu üzrə təkrarsığortaçıların qruplarından asılı olaraq alınan məbləğlər göstərilir.
2. "Yekun" sətri üzrə V sütunda həmin sütun üzrə əvvəlki sətirlərdəki "Aralıq yekun"ların cəmi göstərilir.

**Forma № 8-6**

**Qazanılmamış sığorta haqları ehtiyatının əlavə hissəsi**

__________________________________________ (sığortaçının (təkrarsığortaçının) adı)

**«____»______________20____ c _ il tarixinə**

Sığorta sinfi ______________________________

| Təkrarsığortaçıların qrupları | Qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsində təkrarsığortaçıların payı | Təkrarsığortaçıların qrupları üzrə əmsallar, % | Qazanılmamış sığorta haqları ehtiyatının əlavə hissəsi *(IIx III)* |
|---|---|---|---|

| I | II | III | IV |
|---|---|---|---|
| I qrup təkrarsığortaçılar | | 0 | |
| II qrup təkrarsığortaçılar | | 15 | |
| III qrup təkrarsığortaçılar | | 25 | |
| IV qrup təkrarsığortaçılar | | 50 | |
| **Yekun QSHEƏ** | | X | |

**Qeyd:** II sütunda bu Qaydaya 3 nömrəli əlavədəki 8-5 №-li Formanın V sütunu üzrə alınan müvafiq "Aralıq yekun"ların məbləğləri göstərilir.

**Forma № 8-7**

**Qazanılmış məcmu sığorta (təkrarsığorta) haqları və katastrofik risk təminatına düşən hissəsi**

_______________________________________
(sığortaçının (təkrarsığortaçının) adı)
**«____»______________20____ c _ il tarixinə**

Sığorta sinfi ______________________________

